*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu,*
*"Azərbaycan arxeologiyası və etnoqrafiyası"*
*№ 2, 2019, səh. 146–153*

***Polad Rəsul oğlu Xəlilov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*"Azərbaycanın yeni tarixi" şöbəsi*
E-mail: polad-xalilov@mail.ru

# BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYI ŞURASI TƏFTİŞ-MALİYYƏ KOMİSSİYASININ YARANMASI, TƏRKİBİ VƏ STRUKTURUNA DAİR

**Açar sözlər:** qurultay Şurası, neft sənayeçiləri, komissiya, qurultay, firma
**Ключевые слова:** Совет съезда, нефтепромышленники, комиссия, съезд, фирма
**Key words:** council of the Congress, oil industrialists, commission, congress, company

1884-cü ildə təsis olunmuş və 1920-ci ilə qədər fəaliyyət göstərən Bakı neft sənayeçiləri qurultaylarının keçirilən iclaslarında qəbul edilmiş qərarlara müvafiq olaraq müxtəlif komissiyalar təşkil olunurdu ki, onlar da öz üzərlərinə düşən vəzifələrinin həyata keçirilməsi istiqamətində müxtəlif tədbirlər planı hazırlayıb, onu növbəti qurultayın iclaslarına təqdim edirdilər. Bu komissiyalardan biri də XIX əsrin 90-cı illərinin sonlarında təşkil olunmuş təftiş-maliyyə komissiyası idi ki, o da öz nəzdində yaradılmış müxtəlif yardımçı komissiyaların vasitəsilə mədən-zavod rayonunda təftiş-maliyyə işlərinin həyata keçirilməsi ilə məşğul olmuşdur. İlk əvvəl bu komissiyanın yaranmasının zəruriliyini şərtləndirən amilləri və bu prosesin hansı mərhələlərdən keçdiyini nəzərdən keçirək.

Hələ Bakı neft sənayeçilərinin 1889-cu ilin aprel ayında keçirilən V qurultayında büdcə gəlirləri və xərclərinin sərf olunması işinə nəzarət etmək və çağırılan qurultaylara hesabat təqdim etmək vəzifələrini həyata keçirmək üçün təftiş komissiyasının təsis edilməsi barədə qərar qəbul edilmişdir [1, s. 107]. Bakı Neft Sənayeçiləri Qurultayının 1887-ci ildə qəbul edilmiş "Əsasnamə"sində maliyyə komissiyasının təşkil olunması barədə heç bir maddə nəzərdə tutulmasa da, bu komissiya müəyyən müddət qeyri-rəsmi şəkildə fəaliyyət göstərmişdir. Təftiş komissiyasından fərqli olaraq, maliyyə komissiyası qurultay Şurası tərəfindən işlənib hazırlanmış büdcə xərclərinin ilkin olaraq müzakirə olunması vəzifəsini həyata keçirirdi [2, s. 142].

Bakı neft sənayeçilərinin 1896-cı ilin aprel-may aylarında keçirilən X qurultayında "Rus neft sənayesi cəmiyyəti"nin nümayəndəsi olan S.S.Taqianosov təftiş komissiyasına maliyyə komissiyasının da vəzifələrinin əlavə olunması təklifini irəli sürmüş və bu təkilif qurultay iştirakçıları tərəfindən qəbul olunmuşdur. Beləliklə, Bakı neft sənayeçilərinin 1897-ci ilin aprel-may aylarında keçirilən növbəti XI qurultayında təftiş və maliyyə komissiyalarının birləşmə-

si prosesi baş vermiş və həmin vaxtdan etibarən bu komissiya “təftiş-maliyyə komissiyası” adı altında fəaliyyət göstərməyə başlamışdır [2, s. 142].

XIX əsrin sonlarında, təftiş və maliyyə komissiyalarının ayrı-ayrılıqda fəaliyyət göstərdiyi illərdə onların tərkibində aşağıdakı neft sənayeçiləri təmsil olunmuşdular [3, s. 143; 4, s. 85; 5, s. 85, 134; 6, s. 103; 7, əlavə, s. 3]: təftiş komissiyasının tərkibi - 1.”Kaspi” şirkətindən – P.A.Aslanov 2.”Nobel qardaşları” şirkətindən, “Bakunit” firmasından – Q.M.Karasev 3.”Masis” şirkətindən – K.İ.Maxmurov 4.”Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti”ndən – L.M.Feyql 5.”N.M.Şagidanov” firmasından – S.S.Tağianosov 6.İ.R.Popov; maliyyə komissiyasının tərkibi – 1.Dövlət Əmlakı və Torpaq Nazirliyindən, mədən mühəndisi – Q.F.Markovski 2.“Şagidanov N.M.” firmasından – X.S.Antonov 3.“Bakunit” firmasından – Q.M.Karasev 4.“Mirzo-Avakov” firmasından – A.S.Unanov 5.“Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti”ndən – A.M.Feyql və L.M.Feyql 6.“Souçastniki” firmasından – N.Çurinov 7.“Kaplan və Lev” firmasından – Y.L.Lev 8.“Əsədullayev Ş.” firmasından – A.B.Nəzərov 9.“Masis” şirkətindən – K.İ.Maxmurov 10.A.M.Benkendorf.

Yuxarıda qeyd olunduğu kimi, təftiş və maliyyə komissiyaları birləşdikdən sonra vahid təftiş-maliyyə komissiyası təşkil olunmuşdur. XIX əsrin sonlarında bu komissiyanın tərkibində aşağıdakı neft sənayeçiləri fəaliyyət göstərmişdilər [2, s. 143; 7, s. 140, 142; 8, s. 160; 9, s. 308]: 1.“Kaplan və Lev” firmasından – Y.L.Lev 2.“Rus neft sənayesi cəmiyyəti”ndən – S.S.Tağianosov 3.“Masis” və “Balaxanı-Sabunçu” şirkətlərindən – K.İ.Maxmurov 4.“Souçastniki” firmasından – N.Y.Çurinov 5.“Arafelov və $K^0$” firmasından – Q.Q.Gəncunçev 6.“Karqanov qardaşları” firması və “Rus neft sənayesi cəmiyyəti”ndən – A.B.Nəzərov.

Təftiş-maliyyə komissiyasının fəaliyyəti ilə bağlı olan sonrakı məlumatları izləyərkən məlum olur ki, Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının fəaliyyət dairəsinin genişlənməsi ilə bağlı olaraq bu komissiya Qurultayın sərəncamında olan müəssisələrin və digər inzibati-təsərrüfat sahələrinin təftiş olunması vəzifəsini də həyata keçirmişdir.

Təftiş-maliyyə komissiyasının 1902-ci il martın 15-də keçirilən növbəti iclasında qəbul edilmiş qərara müvafiq olaraq onun nəzdində bir sıra yardımçı komissiyalar (yarımkomissiyalar) da təşkil olunmuşdur: kontor və mühasibatın təftiş olunması üzrə yardımçı komissiya; tibb müəssisələri, məktəblər və xalq evlərinin təftiş olunması üzrə yardımçı komissiya; mülki tikililərin təmir olunması, mədənlərin qurudulması, yanğın komandası və texniki nəzarətin fəaliyyətinə aid olan bütün sahələrin təftişi üzrə yardımçı komissiya; tikinti işlərinin aparılması və yolların təmir olunmasının təftişi üzrə yardımçı komissiya [10, s. 69].

Təftiş-maliyyə komissiyasının 1903-cü ilin 29 mart və 14 aprel tarixlərində keçirilən növbəti iclaslarında yuxarıda göstərilən yardımçı komissiyaların bəzilərinə əlavə səlahiyyətlər də verilmişdir. Məsələn, tibb müəssisələri, məktəblər və xalq evlərinin təftiş olunması üzrə yardımçı komissiyasının vəzifələrinə Bakı sənaye rayonunun sanitariya və su təchizatı üzrə sahələrinin təftiş olunması işləri də həvalə olunmuşdur. Bundan başqa, Qurulyayın vəsaiti hesa-

bına dərc edilən bütün nəşrlərin təftişi üzrə daha bir yardımçı komissiya da yaradılmışdır [11, III].

Qeyd edək ki, yuxarıda göstərilən tibb müəssisələri, məktəblər və xalq evlərinin təftiş olunması üzrə yardımçı komissiyanın üzvləri eyni zamanda həm qurultay Şurası tibb-sanitar Şurasının iclaslarında iştirak edir, həm də bu şuranın üzvlərinə şamil olunan hüquqlara malik olurdular [10, s. 69].

Yardımçı komissiyalar tərəfindən işlənib hazırlanmış məruzələr əvvəlcə onların daxilində müzakirə olunur, daha sonra isə təftiş-maliyyə komissiyasının ümumi yığıncağına təqdim olunurdu. Zəruri olan hallarda iclasa dəvət olunmuş qurultay Şurası İşlər İdarəsi müdirinin, onun müavininin və baş texnikin təlimatları da dinlənilirdi [11, IV]. Yardımçı komissiyalarının məruzələri dinlənildikdən sonra təftiş-maliyyə komissiyası tərəfindən qurultay Şurasının sərəncamında olan bütün müəssisələrə və tikililərə baxış keçirilirdi [12, II].

Ümumiyyətlə, təftiş-maliyyə komissiyasının fəaliyyəti iki mərhələdən ibarət idi: birinci mərhələdə komissiya qurultay Şurası tərəfindən idarə olunan müxtəlif təsərrüfat sahələrinin vəziyyəti ilə yerindəcə tanış olurdu; ikinci mərhələdə isə komissiya növbəti qurultaya məruzə təqdim etmək üçün topladığı məlumatları işləyib hazırlayırdı [13, IV].

1901-1905-ci illərdə təftiş-maliyyə komissiyasının tərkibi aşağıdakı neft sənayeçilərindən ibarət olmuşdur [14, s. 679; 15, s. 351, 356; 10, s. 69; 16, s. 238; 12, I]: 1.“Kaplan və Lev” firmasından – Y.L.Lev və A.L.Lev 2.“İtskoviç L.Y.”, “Seytlin qardaşları və İtskoviç” firmalarından – L.Y.İtskoviç 3.“Bibiheybət neft cəmiyyəti”ndən – A.İ.Manço 4.“Zabava” mədənindən – Kn. A.M.Arqutinski-Dolqorukov 5.“Oriyon” və “Araqats” firmalarından – P.Y.Aslanov 6.“M.A.Kələntərov və $K^0$” ticarət evindən – M.A.Kələntərov 7.“Balaxanı neft kəməri” şirkətindən – İ.S.Alacalov və İ.İ.Urbanoviç 8.“Mirzoyev qardaşları və $K^o$” şirkətindən – L.İ.Quliyev 9.“İ.Q.Tumayev və $K^0$ neft kəməri cəmiyyəti” və “Yegiazarov və $K^0$” firmasından – Y.M.Qittis 10.“Şibayev və $K^0$” firmasından – N.V.Rizenko 11.Dövlət əmlakı və torpaq nazirinin təyinatı ilə mədən mühəndisi – Q.F.Markovski 12.“Kn.Dadiani” firmasından – Kn. “Vorotan və Ter-Markarov” firmasından – N.N.Popov 13.“Balaxanı” şirkətindən – N.M.Sundukyan 14.“Ararat” şirkəti və “İ.İ.Ter-Akopov cəmiyyəti”ndən – İ.T.Əmirov 15.“Nabatov qardaşları və $K^0$” şirkətindən – N.Y.Çurinov 16.A.Q.Vatsyan 17.K.İ.Xatisov 18.A.N.Saparov 19.Q.Q.Gəncunçev 20.S.Q.Lianozov 21.K.İ.Maxmurov 22.M.A.Unanov 23.İ.P.Markarov 24.İ.Y.Çurinov

1901-1905-ci illərdə təftiş-maliyyə komissiyasının sədri vəzifəsində əvvəlcə K.İ.Xatisov, daha sonra A.N.Saparov çalışmışdılar [12, I]. Komissiya sədrinin müavini vəzifəsini əvvəlcə A.N.Saparov [10, s. 69], sonradan A.İ.Manço icra etmişdilər. Komissiyanın katibi vəzifəsində isə V.A.Şpakov fəaliyyət göstərmişdir [12, I].

Qurultayın sərəncamında olan müxtəlif təsərrüfatın sahələrinin təftiş olunmasına görə 1908-ci ildə təftiş-maliyyə komissiyası aşağıdakı 5 qrupa bölünmüşdü: 1) Tibb-sanitar 2) Məktəb və xalq əyləncələri 3) Texniki tikililər 4) Mühasibat 5) Statistika və «Нефтяное дело». Əvvəlki illərdə olduğu kimi, 1906-1910-cu illərdə də qurultay Şurası tibb-sanitar Şurasının tərkibinə təftiş-maliyyə komissiyasından da nümayəndələr seçilmişdilər[17, s. 3-4].

Təftiş-maliyyə komissiyasının 1908-ci il fevralın 19-da keçirilən növbəti iclasında komissiyanın sədrinə qurultay Şurasının iclaslarında iştirak etmək hüququnun verilməsi barədə məsələ müzakirə olunmuş və bu barədə qurultay Şurası qarşısında vəsatət qaldırılmasına qərar verilmişdir. Bu məsələnin həyata keçirilməsində məqsəd o idi ki, qurultay Şurası ilə əməli əməkdaşlığın əldə olunması təftiş-maliyyə komissiyasına ümumi təsərrüfat işi ilə tanış ola bilməsinə imkan yarada bilərdi. Lakin qurultay Şurası bu məsələyə tamamilə başqa mövqedən yanaşmış və həmin təklifi qəbul etməmişdir. Qurultay Şurasının 1909-cu il mayın 11-də keçirilən növbəti iclasında belə bir fikir irəli sürülmüşdür ki, təftiş-maliyyə komissiyası sədrinin qurultay Şurasının iclaslarında iştirak etməsi iki müxtəlif funksiyaların prinsipial cəhətdən bir-birinə qarışmasına səbəb ola bilərdi [18, s. 7, 9].

Göründüyü kimi, tərkibi iri firma nümayəndələrindən ibarət olan qurultay Şurası hətta öz iclaslarını belə qapalı şəraitdə keçirir və öz maraqlarına uyğun olan qərarların qəbul olunmasına nail olurdu. Təftiş-maliyyə komissiyasının vəzifəsi isə təsərrüfatın müxtəlif sahələrini təftiş edib, bu barədə Bakı neft sənayeçiləri qurultaylarına hesabat verməklə məhdudlaşırdı. Beləliklə, Bakı neft sənayeçiləri qurultaylarında istənilən qərarların qəbul olunması qurultay Şurasının tutduğu mövqedən asılı olurdu.

1906-1910-cu illərdə təftiş-maliyyə komissiyasının tərkibində aşağıdakı şəxslər fəaliyyət göstərmişdilər [19, s. 456; 20, s. 199, 405, 489; 21, s. 4; 22, s. 646; 23, s. 479; 24, s. 279; 25, s. 160]: 1.Qafqaz mədən dairəsinin mühəndisi – Q.F.Markovski 2.“Rus neft sənayesi cəmiyyəti”ndən – İ.Urbanoviç və A.B.Nəzərov 3.“Rus neft sənayesi cəmiyyəti”nin Bakı şöbəsindən – İ.P.Xaxulin 4.“İ.İ.Dadiani neft cəmiyyəti”ndən – İ.İ.Dadiani 5.“Nabatov qardaşları və $K^0$” şirkətindən – N.Y.Çurinov 6.“Milov və Tairov” şirkətindən – M.Y.Ter-Andreasyan 7.“Şirvan” birliyindən – F.Ə.Mərdanov 8.“Musa Nağıyev” firmasından – Fətulla Bəy-Rüstəmbəyov və A.D.Maqamayev 9.Rus “Neft” şirkətindən – P.A.Knyazev 10.“Balaxanı-Sabunçu” firmasından – K.İ.Maxmurov 11.“Aramazd” cəmiyyətindən – X.B.Marqulov, A.Q.Vatsyan və K.O.Kostanyan 12.“Naftalan” cəmiyyətindən – A.B.İrzayev 13.“Petrol” cəmiyyətindən – İ.İ.Lempert 14.“Bakı neft cəmiyyəti”ndən – D.A.Veremeyenko 15.“Kələntərov M.” firmasından – Q.B.Ter-Mikaelyan 16.“Məlikov və $K^0$”, “Saruxanov M.M.” firmalarından – Ə.Ə.Kələntərov 17.“Qoldlyust Q.Q.” firmasından – M.L.Bondarevski 18. “Şibayev S.M. və $K^0$” firmasından – B.Ə.Cavanşirov və L.A.Fedoseyev 19.“Rus neft və maye yanacağı istehsalı cəmiyyəti”, “Voski” şirkəti və “Vişau Y.V.” firmasından – T.K.Voskanyan 20.“Məlikov A.S. və $K^0$” firmasından – T.S.Məlikov 21.“Pitoyev İ.Y.” firmasından – A.N.Saparov 22.“Tiflis neft cəmiyyəti”ndən – A.Q.Gülmisəryan 23.“Şıxov” cəmiyyətindən – S.M.Ter-Qriqoryan 24.“Məlik-Azaryan A.A.” firmasından L.İ.Bəhramov 25.P.A.Məlikyan 26.S.M.Kurxin 27.A.İ.Çurinov 28.X.S.Terteryan 29.P.Sveçnikov 30.Starkov.

1906-1910-cu illərdə təftiş-maliyyə komissiyasının sədri vəzifəsində “Petrol” cəmiyyətindən – A.İ.Qurviç; “Bibiheybət neft cəmiyyəti”ndən – A.İ.Manço və A.N.Saparov; katibi vəzifəsində isə V.A.Şpakov və S.A.Markarov fəaliyyət göstərmişdilər [26, s. 4; 26, s. 24; 25, s. 160].

1913-cü ildə qurultay Şurasının təftiş-maliyyə komissiyası öz fəaliyyət dairəsinə görə mühasibat, tibb-sanitar, texniki və təhsil bölmələri qruplarına bölünmüşdü [27, s. 3-4]. 1911-ci ildən Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyət dövrünün başa çatmasına qədər olan müddətdə təftiş-maliyyə komissiyasının tərkibində aşağıdakı şəxslər fəaliyyət göstərmişdilər [28, s. 101; 29, s. 109; 30, s. 44]: 1.“Taros” firmasından – L.İ.Bəhramov 2.“Rus neft sənayesi cəmiyyəti”nin Bakı şöbəsindən – D.A.Veremeyenko 3.“Oleum” cəmiyyəti və “Born” firmasından – T.K.Voskanyan 4.“Bibiheybət neft cəmiyyəti” və “Şibayev” firmasından – V.N.Delov 5.“Lianozov S.Q.” firmasından – A.A.Kələntər 6.“Qafqaz” cəmiyyətindən – N.A.Katovski 7.“Aramazd” cəmiyyətindən – X.B.Marqulov 8.“Lianozov Q.M. və oğlanları” və “Məlikov A.S. və $K^0$” firmalarından – A.B.Nəzərov 9.“Şibayev S.M. və $K^0$” firmasından – P.F.Nikolski və Q.B.Ter-Mikaelyan 10.“Abşeron” cəmiyyətindən – M.A.Ter-Andreasyan 11. “Souçastniki” firmasından – N.M.Ter-Mkrtıçyan 12.V.Z.Barakov 13. M.A.Krikoryan 14.İ.T.Xandəmirov 15.A.A.Benkendorf 16.N.N.Kulakov 17. Q.B.Mkrtıçyan 18.A.İ.Ter-Stepanov 19.A.F.Semenov 20.Ə.N.Atabəyov 21.Ş.-b. Rüstəmbəyov 22.A.B.Tairov 23.K.M.Makarov 24.Q.S.Makarov 25.Ə.B.Hacınski 26.R.P.Boyaroqlo 27.Ə.B.Qulubəyov 28.V.L.Eskeless 29.M.X.Məlik-Şahnəzərov 30.A.S.Suxaryevski.

Yuxarıda göstərilən müddətdə V.N.Delov təftiş-maliyyə komissiyanın sədri qismində, N.Nikitin isə komissiyanın katibi vəzifəsində fəaliyyət göstərmişdilər [27, s. 3, 57].

Beləliklə, təftiş-maliyyə komissiyasının fəaliyyət göstərdiyi illər ərzində onun strukturunda elə də ciddi dəyişikliklər baş verməmiş, tərkibi isə əsas etibarilə xırda və orta firmalardan təmsil olunan neft sənayeçilərindən ibarət olmuşdur. Təftiş-maliyyə komissiyasının ilk vaxtlardakı fəaliyyəti Qurultayın büdcə gəlirləri və xərclərinin sərf olunması işinə nəzarət etmək vəzifəsi ilə məhdudlaşırdısa, qısa bir müddətdən sonra bu komissiya qurultay Şurasının mədən-zavod rayonundakı müəssisələrinin, hətta Bakı neft rayonunun sanitariya baxımından təftiş olunması işlərini də həyata keçirmişdir. Təftiş-maliyyə komissiyası qurultay Şurasının nəzdində təsis edilən qurum kimi fəaliyyət göstərsə də, həmin şuranın yığıncaqlarında onun iştirak etməməsi səbəbindən bu qurumun fəaliyyəti formal xarakter daşımışdır. Bu amil qurultay Şurasına neft sənayeçiləri qurultaylarına təqdim etdiyi hesabatlarını istədiyi kimi işləyib hazırlamasına imkan vermişdir. Təftiş-maliyyə komissiyası tərəfindən müxtəlif müəssisələrin yoxlanılması zamanı aşkar olunan məsələlər barədə Bakı neft sənayeçiləri qurultaylarına müvafiq təkliflərin irəli sürülməsinə baxmayaraq, qurultay Şurasında təmsil olunan iri firmalar bu təklifləri öz maraqlarına uyğun şəkildə həll etmişdilər.

## ƏDƏBİYYAT

1. Труды пятого съезда нефтепромышленников в гор. Баку (с 22-го по 30-е апреля 1889 года), Баку: Типография газеты «Каспий», 1889, 186 с.
2. Труды одиннадцатого очередного съезда нефтепромышленников в г. Баку (с 21 апреля по 2 мая 1897 года). Баку: Типография «Арор», 1897, 184 с.
3. Труды седьмого очередного съезда нефтепромышленников в г. Баку (с 29 сентября по 7 октября 1890 года). Баку: Типография газ. «Каспий», 1890, 144 с.
4. Труды восьмого очередного съезда нефтепромышленников в г. Баку (с 15 по 26 октября 1892 г.). Баку: Типогр. газ. «Каспий», 1892, 106 с.
5. Труды девятого очередного съезда нефтепромышленников в г. Баку (с 24 октября по 12 ноября 1894 года). Баку: Типографии: газ. «Каспий», «Арор» и Губернская, 1894, 251 с.
6. Труды десятого очередного съезда нефтепромышленников в г. Баку (с 20 апреля по 2 мая 1896 года). Баку: Типография «Арор», 1896, 207 с.
7. Труды двенадцатого очередного съезда нефтепромышленников в г. Баку (с 21 апреля по 5 мая 1898 г.). Баку: Типография «Арор», 1898, 178 с.
8. Труды тринадцатого очередного съезда нефтепромышленников в г. Баку (с 3-го по 17-е мая 1899 года). Баку: Типография А.Г.Юзбашева, 1899, 198 с.
9. Труды четырнадцатого очередного съезда нефтепромышленников в г. Баку (с 5-го по 28-ое мая 1900 года). Баку: Типография А.Г.Юзбашева, 1900, 359 с.
10. Труды XVII очередного съезда нефтепромышленников в гор. Баку (с 2-го по 23-е декабря 1902 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1903, 269 с.
11. Доклад ревизионной комиссии XVIII съезду нефтепромышленников // Труды XVIII очередного съезда нефтепромышленников в гор. Баку (с 5-го по 22-е декабря 1903 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1904, III-IV.
12. Доклад ревизионной комиссии XX съезду нефтепромышленников // Труды XX очередного съезда нефтепромышленников в гор. Баку (с 31-го января по 13-е февраля 1905 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1905, I-III.
13. Доклад ревизионной комиссии XXII съезду Бакинских нефтепромышленников // Труды XXII очередного съезда нефтепромышленников в гор. Баку (с 8-го мая по 1-ое июня 1906-го года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1906, I-VII.
14. Труды XVI очередного съезда нефтепромышленников в гор. Баку (с 8-го декабря 1901 года по 9-е января 1902 года). Том I. Баку: Типография 1-го Типографского Товарищество, 1902, 797 с.

15. Труды XVII очередного съезда нефтепромышленников в гор. Баку (с 2-го декабря 1902 г. по 23-е декабря 1902 г.). Том I. Баку: Типография А.К.Касабова, 1903, 537 с.
16. Труды XVIIIочередного съезданефтепромышленников в гор. Баку (с 5-го по 22-е декабря 1903 года). Том I. Баку: Типография 1-го Типографского Товарищество, 1904, 637 с.
17. Протоколы ревизий учреждений съезда в 1908 году ⁄⁄ Труды XXVII очередного съезда нефтепромышленников в гор. Баку (с 12-го января по 3-е февраля 1909 года). Том II. Баку: Типографии: 1-е Тип. Т-во и «Труд» Берладира, 1909, с. 1-186.
18. Труды XXVIII очередного съезда нефтепромышленников в гор. Баку (с 30-го ноября по 16-е декабря 1909 года). Том II. Баку: Типографии Первого Типографск. Т-во и «Труд» Берладира, 1910, 164 с.
19. Труды XXII очередного съезда нефтепромышленников в гор. Баку (с 8-го мая по 1-ое июня 1906 года). Том I. Баку: Типография 1-го Типографского Товарищество, 1906, 685 с.
20. Труды XXIII очередного съезда нефтепромышленников в гор. Баку (с 27 ноября по 16 декабря 1906 года). Том I. Баку: Типографии: 1-го Тип.Т-во и «Труд», 1907, 547 с.
21. Доклад ревизионной комиссии XXIII съезду Бакинских нефтепромышленников ⁄⁄ Труды XXIII очередного съезда нефтепромышленников в гор. Баку (с 27 ноября по 16 декабря 1906 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1907, I-V.
22. Труды XXV очередногосъезда нефтепромышленников в гор. Баку (с 15-го января по 8-ое февраля 1908 года). Том I. Баку: Типографии: 1-е Тип. Т-во и «Труд» Берладира, 1908, 648 с.
23. Труды XXVIIочередного съезданефтепромышленников в гор. Баку (с 12-го января по 3-е февраля 1909 года). Том I. Баку: Типографии: 1-го Типографского Т-во и «Труд» С.Г. Берладира, 1909,484 с.
24. Труды XXVIII очередного съезда нефтепромышленников в гор. Баку (с 30-го ноября по 16-ое декабря 1909 года). Том I. Баку: Типографии: «Труд» и 1-го Тип. Т-во, 1910,281 с.
25. Доклад ревизионной комиссии, избранной на XXVIII съезде Бакинских нефтепромышленников, XXIX съезду. Баку: б.м., 1910, 160 с.
26. Доклад ревизионно-финансовой комиссии о «Проекте реорганизации деятельности Совета съезда нефтепромышленников» ⁄⁄ Труды XXVI экстренного съезда нефтепромышленников в гор. Баку (23-26 июня 1908 года). Баку: Типография Первого Типографского Товарищество, 1908, с. 1-45.
27. Доклад ревизионной комиссии, избранной на XXXII съезде бакинских нефтепромышленников, по обревизованию отчета Совета за 1913 год ⁄⁄ Труды XXXIII очередного съезда нефтепромышленников в гор.Баку (30 ноября – 8 декабря 1914 г.). Баку: Типография «Труд» С.Г.Берладира и $К^0$, 1915, с. 1-57.

28. Труды XXXIII очередного съезда нефтепромышленников в гор.Баку (30 ноября – 8 декабря 1914 г.). Баку: Типография «Труд» С.Г.Берладира и К$^{0}$, 1915, 104 с.
29. Труды XXXIV очередного съезда нефтепромышленников в гор. Баку (30 ноября – 11 декабря 1915 г.). Баку: Типография «Труд» С.Г.Берладир и К-о, 1916, 114 с.
30. XXXVII очередной съездь Бакинских нефтепромышленников // «Нефтяное дело», 1919, 20 ноября, № 19-20, с. 37-47.

***Полад Расул оглы Халилов***

## О СОЗДАНИИ, ДЕЯТЕЛЬНОСТИ И СТРУКТУРЕ РЕВИЗИОННО-ФИНАНСОВОЙ КОМИССИИ СОВЕТА СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ

***РЕЗЮМЕ***

В статье рассматриваются вопросы создания, состава и структуры действующей ревизионно-финансовой комиссии в качестве органа Совета Съезда Бакинских Нефтепромышленников в период вхождения нефтяной промышленности Баку в стадию капиталистического развития. Поскольку члены ревизионно-финансовой комиссии в основном были представлены малыми и средними фирмами нефтяной промышленности, интересы крупных фирм столкнулись с интересом Совета съезда. По этой причине отчеты ревизионно-финансовой комиссии, представленные съезду бакинских нефтепромышленников, обсуждались в интересах Совета съезда.

***Polad Rasul oglu Xhalilov***

## ON ESTABLISHMENT, ACTIVITIES AND STRUCTURE OF THE AUDIT AND FINANCE COMMISSION OF THE COUNCIL OF THE CONGRESS OF BAKU OIL INDUSTRIALISTS

***SUMMARY***

This article deals with establishment, composition and structure of current audit and financial commission as a body of the Council of the Congress of Baku Oil Industrialists during the period when oil industry of Baku entered the stage of capitalist development. Since the members of the audit and finance commission were mainly represented by small and medium-sized firms in the oil industry, the interests of large firms clashed with the interest of the Council of the congress. For this reason, the reports of the audit and financial commission submitted to the congress of Baku oil industrialists were discussed in the interests of the Councilofthe congress.